səs

facebook

3 mart 2017-ci il

# Mənim oyaq yuxularım

## (Mikayıl Müşfiq)

***Ramiq Muxtar 1942-ci ildə Naxçıvan şəhərində ziyalı ailəsində anadan olub. 11 yaşından yaradıcılıqla məşğul olan Ramiq Muxtar 1980-ci ildən şair-dramaturq kimi Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 7 dram əsəri Bakı, İrəvan, Naxçıvan, Qazax, Ağdam Dövlət Dram Teatrlarında tamaşaya qoyulmuş, sözlərinə 120-dən artıq mahnı bəstələnmişdir. "Şeyx Sənan", "Ölüm tanqosu" və "Balet liberretoları"nın müəllifidir. O, respublikada hərbi- vətənpərvərlik mövzusunda keçirilən müsabiqədə 8 dəfə 1-ci mükafata layiq görülmüşdür. Ulu Öndərimiz Heydər Əliyevin şəxsi tapşırığı ilə "Dünya Azərbaycanlılarının Birlik Nəğməsi"ni bəstəkar Nəriman Məmmədovla birlikdə yazmışdır. Həmçinin, Azərbaycan jurnalistlərinin himnini bəstəkar Eldar Mansurovla birlikdə yazmışdır. Ramiq Muxtarın əsərlərinin birinci cildi çap olunmuş, ikinci cild isə hazırda mətbəədə nəşrə hazırlanır. Yeni yazdığı "Mənim oyaq yuxularım" povestini ikinci cildə daxil etmişdir.***

***O, Gürcüstan Respublikasının Ali "Şərəf" ordeninə layiq görülmüş, Rəsul Rza adına Beynəlxalq Mükafatın sahibidir. Prezident Təqaüdçüsüdür, 2 övladı hərbçi-zabit, müharibə veteranıdır.***



**RAMİQ MUXTAR**

**XIII yuxu**

Atamın matros geyimli yaraşıqlı bir gənclə gəlişinə ürəkdən sevindim. O, məni, mən də onu tanıdım. Bu, bizim nakam şairimiz Mikayıl Müşfiq idi. Çünki Müşfiq yaradıcılığının təbliğatçısı, vaxtilə repressiyaya, işgəncələrə məruz qalmış xalq yazıçısı Gülhüseyn Hüseynoğlu ilə hər il Mikayıl Müşfiqin doğum və ölüm günlərində biz yazıçılarla keçmiş Sovet küçəsi - 207 ünvanında yerləşən Müşfiq yaradıcılığına layiq olmayan, əslində, ortabab qəbirüstü abidəyə bənzər büstün ətrafına yığışardıq. Ziyarətə gələnlərlə abidə önünə gül-çiçək qoyardıq və ona həsr etmiş olduğumuz şeirlərimizi oxuyardıq. Növbəti gəlişdə o vaxt mən Müşfiqə həsr etdiyim şeirimi oxuduqdan sonra üzümü Gülhüseyn müəllimə tutub dedim:

- Bu taleyi qara gəlmiş nakam şairimizin yaradıcılığına bu kiçik yarıüzlü büst heç yaraşmır. Həm də ərazi yeli memarlar tərəfindən düzgün seçilməyib. Bu gözəgörünməz yerdə hələ mən bir dəfə də görməmişəm ki, kimsə onun büstünün qarşısına bir dəstə gül qoysun. Çünki mənim bibimin qızı Kima xanım həmin binanın 5-ci mərtəbəsində yaşayırdı. Mən tez-tez onlara gedəndə, bu kiçik büstün yanında dayanıb, ona rəhmət diləməklə, ruhum dinclik tapırdı. Yaxşı olarda ki, Mikayıl Müşfiqin kiçik abidəsi yox, heykəli şəhərin mərkəzi parklarının birində qoyulsun. Rəhmətlik Qabil müəllim məsləhət gördü ki, bu haqda məsələ qaldıraq. Mən səhərisi gün şəhərimizin meri Hacıbala Abutalıbovun yanına getdim. O, məni çox mehribançılıqla qarşıladı. Çünki o şəhərimizi abad bir şəhərə çevirdiyinə görə, ona həsr etdiyim şeirim həm qəzetdə, həm də seçilmiş əsərlərimin birinci cildində çap olunmuşdu. O,



məni dinlədikdən sonra, fikrimi çox bəyəndi və məsləhət gördü ki, siz heykəl məsələsini həll edin, mən şəhərin ən gözəl bir yerində "siz yazıçıların arzusu ilə onun inşasını təşkil edərəm". Hələ bu hadisədən qabaq, vaxtilə Xalq Cəbhəsinin dövründə dahi şair-dramaturqumuz Hüseyn Cavidin abidəsinin açılışında mən gənclik dostum, heykəltaraş Akif Əsgərova dedim ki, Mikayıl Müşfiq və Səməd Vurğun Hüseyn Cavidin ən sevimli və bəyəndiyi şairlər imiş. Bu haqda Cavid əfəndinin həyat yoldaşı Mişkünaz xanım mənə demişdi. Yaxşı olar ki, biz təşəbbüs qaldıraq, sən Mikayıl Müşfiqin ayaqüstə heykəlini hazırlayasan. Akif müəllim mənim bu təklifimi çox bəyəndi və dedi:

- Məmnuniyyətlə, mən bu işə girişərəm. Ancaq lazımdır ki, siz Rəssamlar İttifaqı ilə söhbət aparın və onlar mənimlə müqavilə bağlasınlar.

- O vaxt Xalq Cəbhəsinin dövrü olduğuna görə, yuxarıdakı iqtidar sahibləri bu işə laqeyd münasibət göstərdilər.

Atamla Mikayıl Müşfiqin birlikdə gəlişinə mən özüm də təəccüb etdim. Dedim ata, bu böyük şairimiz o vaxt dahi şair-dramaturqumuz Hüseyn Cavid haqqında qəzetlərdə ifşaedici məqalələr yazmadığına görə, onu aparıb Nargin adasında güllələyib, dənizə atmışdılar. Bunun cəsədi torpaqda deyil ki, səninlə cənnətdə görüşə bilsin. Atam dedi:

- Ay oğul, sularda da cənnət var. Bizim bu quru cənnətə onlar tez-tez gəlirlər. Öz